https://doi.org/10.59849/2710-0820.2026.1.177

**Şəbnəm Rüstəmova**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun doktorantı*
*shabnamrustamova23@gmail.com*
*https://orcid.org/0009-0001-4521-8666*

# "1727-Cİ İL TARİXLİ RƏVAN LİVASI MÜFƏSSƏL TƏHRİR DƏFTƏRİ"NƏ GÖRƏ İRƏVAN VİLAYƏTİNDƏ KƏND TƏSƏRRÜFATININ VƏZİYYƏTİ

***Açar sözlər:*** *İrəvan vilayəti, müfəssəl təhrir dəftəri, kənd təsərrüfatı, əkinçilik, dənli bitkilər.*

**Giriş**

XVIII əsrin birinci yarısı Azərbaycan tarixində mühüm siyasi və sosial-iqtisadi dəyişikliklərlə səciyyələnən bir dövr olmuşdur. Bu mərhələ, xüsusilə Səfəvi dövlətinin süqutu və regionda yeni siyasi qüvvələrin meydana çıxması ilə müşayiət olunmuş, nəticədə iqtisadi həyatın müxtəlif sahələrində, o cümlədən kənd təsərrüfatında ciddi transformasiyalar baş vermişdir. Məhz bu mürəkkəb tarixi şəraitdə tərtib olunmuş "1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri" İrəvan vilayətinin sosial-iqtisadi vəziyyətini öyrənmək baxımından mühüm və etibarlı mənbələrdən biri hesab olunur.

Osmanlı inzibati-maliyyə sisteminə xas olan müfəssəl təhrir dəftərləri əhalinin sayı, torpaq bölgüsü, kənd təsərrüfatı sahələrinin strukturu, vergi növləri və onların həcmi haqqında geniş və sistemli məlumatlar təqdim edir. Bu baxımdan, 1727-ci il tarixli qeyd olunan dəftər İrəvan vilayəti ərazisində kənd təsərrüfatının vəziyyətini, istehsal sahələrinin spesifik xüsusiyyətlərini və kənd icmalarının iqtisadi fəaliyyətini kompleks şəkildə təhlil etməyə imkan yaradır.

Müfəssəl təhrir dəftəri kimi tanınan bu sənəd, vilayətdə qeyd olunan nahiyələr üzrə becərilən məhsul növləri və kəndlilərin vergi öhdəlikləri, regionun iqtisadi coğrafiyasını, torpaq istifadəsinin intensivliyini və kənd təsərrüfatının mövcud vəziyyətini anlamaq üçün geniş imkanlar yaradır.

Tədqiqatın aktuallığı ondan ibarətdir ki, İrəvan vilayətinin kənd təsərrüfatı strukturu yalnız regionun iqtisadi həyatını deyil, eyni zamanda sosial münasibətlər sistemini, torpaq mülkiyyəti formalarını və vergi siyasətinin mahiyyətini də əks etdirir. Bu baxımdan kənd təsərrüfatının öyrənilməsi, həm də ümumilikdə XVIII əsrin I yarısında Azərbaycanın iqtisadi tarixinin rekonstruksiyası üçün mühüm əhəmiyyət kəsb edir.

Bu məqalənin yazılmasında məqsəd "1727-ci il tarixli İrəvan livasının müfəssəl təhrir dəftəri"nin məlumatları əsasında İrəvan vilayətində kənd təsərrüfatının əsas sahələrini, məhsul növlərini, torpaq istifadəsi xüsusiyyətlərini və kəndli təsərrüfatlarının iqtisadi fəaliyyət istiqamətlərini müəyyən etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün məqalədə mənbənin verdiyi statistik məlumatlar təhlil ediləcək, kənd təsərrüfatının aparıcı istiqamətlərindən biri olan – əkinçilik üzrə vəziyyət dövrün digər qaynaqları elmi tədqiqat əsərləri əsasında sistemli şəkildə araşdırılacaqdır.

Beləliklə, təqdim olunan tədqiqat həm konkret bir tarixi mənbənin elmi dövriyyəyə daha dərindən cəlb olunmasına, həm də İrəvan və onun ətraf bölgələrində kənd təsərrüfatının XVIII əsrin I yarısında real vəziyyətinin obyektiv şəkildə qiymətləndirilməsinə xidmət edir.

***1. Təhrir dəftərlərinə görə İrəvan vilayətində becərilən dənli bitkilər***

İrəvan vilayətinin iqtisadiyyatı əsasən kənd təsərrüfatı, heyvandarlıq və ticarətə əsaslanırdı. Bölgə kənd təsərrüfatı üçün son dərəcə əlverişli, suvarılan və məhsuldar torpaqlara malik idi (Evliya Çələbi Səyahətnaməsində Azərbaycan, 2012, s. 45). 1717-ci ildə Səfəvi sarayında olan Rusiya səfiri Artemi Volınski yazırdı ki, "ölkədə ən yaxşı vəziyyətdə olan əyalətlər Osmanlı imperiyası sərhədindən başlayaraq İrəvan və Təbriz bölgələridir. Bu yerlər iqtisadi baxımdan rifah səviyyəsi yüksək olan şəhərlər olub, həm

də dövlətə mühüm ticarət gəlirləri qazandırır. Həmin ərazilərin torpaqları olduqca münbitdir; burada geniş üzüm bağları mövcuddur və hətta Türkiyədə belə rast gəlmədiyim müxtəlif meyvə və tərəvəz növləri yetişdirilir" (Zevakin, 1929, s. 11; İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi, 2010, s. 103; Yeşilot, 2014, s. 136).

İrəvan vilayətinin sərhədləri daxilində yerləşən ərazi yüksəkliyi çox olan coğrafi məkan kimi səciyyələnir. Relyefin hündürlüyü və ərazinin dənizdən uzaq mövqedə yerləşməsi bölgədə kəskin kontinental iqlimin formalaşmasına səbəb olmuşdur. Bununla belə, kontinental iqlimə rəğmən, daha mülayim iqlim şəraitinin müşahidə edildiyi sahələr də mövcuddur. Araz çayının axdığı, Çuxursəəd kimi tanınan və İğdır ilə İrəvan ovalıqlarını əhatə edən ərazi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Mülayim iqlim zonasının cənub istiqamətində Naxçıvan şəhərinin yerləşdiyi ovalığa qədər uzandığı görünməkdədir. Ümumilikdə, Aras çayının keçdiyi ovalıqlar mülayim iqlim xüsusiyyətləri ilə fərqlənir; bu sahələrdən kənarda qalan bütün ərazilər, o cümlədən İrəvan şəhəri isə tipik kontinental iqlim göstəricilərinə malikdir (İsmayılov, 2022, s. 14).

İqlim quruluşu, şübhəsiz ki, insanların həyat tərzinin və təsərrüfat məşğuliyyətlərinin formalaşmasında həlledici rol oynayır. Kiçik Qafqaz sıra dağlarının cənub hissəsində yerləşən İrəvan vilayətində günəş şüaları yer səthinə daha böyük bucaq altında düşdüyünə görə çox isti olur. Şimala doğru günəş şüalarının düşmə bucağının azaldığı müəyyən dəyişıklık yaratsa da nəticədə kəskin temperatur fərqləri yaranır və səthin aldığı istiliyin miqdarı da aşağı düşür. Bu da rütubətin yaranmasına gətirib çıxardır. Yəni hava kütlələrinin gətirdiyi yağıntılar rütubətin davamlılığına səbəb olur. Mülayim və rütubətli hava kütlələrinin keniş radiusla yayılması davam etdikcə rütubətlik və iqlim kontinentallığı azalmağa başlayır (İsmayılov, 2022, s. 14; Budaqova, 2025, s. 23).

Buna görə, bəhs olunan dövrdə İrəvan vilayətində kontinental iqlimin hakim olduğu bölgələrdə arpa və buğda kimi nisbətən soyuğa davamlı taxıl növlərinin becərilməsi həyata keçirilmişdir. Bu taxıllara əlavə olaraq, xüsusilə qışın daha mülayim keçdiyi və yay istilərinin təsirli olduğu Aras çayı boyunda çəltikçilik, pambıqçılıq və meyvəçilik də inkişaf etmişdir. İrəvan vilayətinin dağlıq ərazi olması və əkinə yararlı torpaqların məhdudluğu burada heyvandarlığın da mühüm yer tutmasına səbəb olmuşdur.

İrəvan vilayətində dağlıq kəndlərdə üşr vergisi məhsulun 1/10, suvarıla bilən münbit torpaqlara malik yaşayış məntəqələrində isə 1/5 olduğunu söyləmək mümkündür. Bunun müəyyənləşdirilməsində həmin yaşayış məntəqələrində yetişdirilən kənd təsərrüfatı məhsullarının əsaslı rol oynadığı da qeyd edilməlidir. Belə ki, kontinental iqlimin hakim olduğu dağlıq ərazilərdə buğda, arpa, darı kimi taxıl növləri yetişdirildiyi halda, çəltik və pambıq kimi məhsulların becərilməsi mümkün olmamışdır. Həmçinin bu tip kəndlərdə bağçılığın da mövcud olmadığı müşahidə edilir. Bütün bunları nəzərə alaraq, bu kəndlərin ərazilərini suvarmənnın həyata keçirilə bilmədiyi, məhsuldarlığın aşağı olduğu dağlıq sahələr kimi xarakterizə etmək olar (İvecan, 2007, s. 173-174).

Səfəvilər dövlətinin digər vilayətlərində olduğu kimi, İrəvan vilayətində də taxıl məhsullarının ölçü vahidi kimi kilə tətbiq olunurdu (Hinz, 1990, s. 51). Bu məhsulların kilə üzrə dəyəri isə ağça ilə müəyyən edilmişdir. Məhsulların qiyməti vilayətin müxtəlif nahiyələrində fərqli idi. Təhrir dəftərlərində buğda İrəvan livasında *gendüm,* Naxçıvanda isə *hınta* adı ilə qeydə alınmış və bir kiləsinin qiyməti 30 ağça müəyyən edilmişdir. Arpa İrəvan livasında *cev*, Naxçıvanda isə *şair* kimi qeyd olunmuş, bir kiləsinin dəyəri 20 ağça göstərilmişdir. Darının qiyməti İrəvan livasında 20, Naxçıvanda isə 15 ağça təsbit edilmişdir. Noxud və mərci İrəvan livasında 60, Naxçıvanda isə 18 ağça kimi qiymətləndirilmişdir. Paxlanın bir kiləsi İrəvan livasında 60, Naxçıvanda isə 15 ağçadır; İrəvan livasında kətan toxumunin bir kiləsi 100 ağça, Naxçıvan livasında isə 15 ağçadır, bununla yanaşı, Naxçıvanın bəzi nahiyələrində paxlanın qiymətinin 18 ağça olduğu da qeyd olunmuşdur. Çəltiyin kilə üzrə qiyməti İrəvan livasında 60 ağça, Şörəyel nahiyəsində 100 ağça, Naxçıvanda isə 75-80 ağça arasında dəyişmişdir (İvecan, 2007, s. 174-175).

Məhsulların həcminin kiloqram ifadəsində qarşılığının hesablanması zamanı V.Hins tərə-

findən təqdim edilən və ümumilikdə qəbul olunmuş ölçü vahidləri əsas götürülmüşdür. Bu hesablamaya görə buğda, darı, çovdar, noxud, mərci, paxla, soğan və sarımsaq kimi məhsulların bir kiləsi 25 kiloqrama, arpanın bir kiləsi 22,25 kiloqrama, çəltiyin bir kiləsi isə 12,828 kiloqrama bərabər hesab edilmişdir (Hinz, 1990, s. 51).

İrəvan, vilayətinin ərazicə ən geniş livasıdır. Şimal hissədə Abaran, Dərəçiçək, Şörəyel kimi dağlıq nahiyələr, həmçinin Qırxbulaq və Gərni kimi dağlıq olmaqla yanaşı qismən ovalıq sahələri də əhatə edən nahiyələr bu livanın tərkibinə daxildir. Bununla yanaşı, Aras çayının keçdiyi və Çuxursəəd adlanan ovalıq ərazi də İrəvan livasının sərhədləri içərisində yerləşir. Livada yetişdirilən əsas taxıl məhsulları buğda, arpa, darı, çəltik, kətan, noxud, mərci və paxladır (1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 95-96).

İrəvan vilayətində əhalinin əsas məşğuliyyəti arasında əkinçilik, arpa, çəltik başlıca yer tuturdu (Məmmədova, 2022, s. 89). İrəvan vilayətində yetişdirilən taxıl məhsulları arasında iqtisadi baxımdan ən yüksək gəlir gətirən məhsullardan biri də çəltik olmuşdur. Çəltik, buğda və arpadan sonra əhalinin qidalanmasında mühüm yer tutan üç əsas taxıl bitkisindən biridir (Doğanay, 2007, s. 116). Lakin vegetasiya dövründə buğda və arpadan fərqli olaraq xüsusi iqlim şəraiti tələb etdiyinə görə, digər iki taxılla müqayisədə daha məhdud ərazilərdə becərilir.

Əsasən isti iqlim qurşaqlarına xas olan çəltik, yetişmə mərhələsində bol su ehtiyacı duyduğundan, yalnız su mənbələrinə, xüsusilə çay və arxların yaxınlığında yerləşən ərazilərdə becərilə bilmişdir. Bu səbəbdən çəltik istehsalı əsasən İrəvan, Qırxbulaq, Kərpi, Gərni, Şərur, Aralıq, İğdır nahiyələrində mümkün olmuşdur (1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 96, 98, 125, 357, 410, 502, 617).

İrəvan qəzasında çəltikçilikdən illik 200 kilə (2565,6 kq) üşr gəliri əldə edilmiş və bu üşrün ümumi dəyəri 12.000 ağça təşkil etmişdir. Buğda istehsalı isə iqtisadi cəhətdən ikinci yerdə qərarlaşmışdır. Qəzada buğda istehsalından ümumilikdə 300 (7.500 kq) kilə üşr gəliri toplanmış və bu üşrün maddi dəyəri 9.000 ağça olmuşdur. Qəzada ən çox istehsal olunan taxıl məhsulu arpadır. Arpa istehsalından ümumilikdə 388 kilə (9633 kq) üşr gəliri əldə edilmişdir. Kilə həcmi baxımından müqayisə edildikdə arpa taxıl məhsulları arasında həm istehsal həcmi, həm də üşr həcmi ən yüksək olan məhsuldur. Lakin arpanın bazar dəyərinin aşağı olması nəticəsində ondan əldə edilən üşrün iqtisadi çəkisi də aşağı olmuşdur. Bu səbəbdən arpadan toplanan üşrün ümumi dəyəri 7.760 ağça təşkil edərək, iqtisadi göstəricilər baxımından çəltiyin və buğdanın ardınca yalnız üçüncü sırada qərarlaşmışdır (1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 96).

İrəvan nahiyəsində becərilən dənli bitkilər arasında kətan toxumu da olmuşdur. Nahiyədə kətan toxumu məhsulundan 30 kilə üşr toplanmış və bu üşrün iqtisadi dəyəri 3.000 ağça təşkil etmişdir. Darı istehsalından isə illik 100 kilə (2.500 kq) üşr əldə olunmuş, bu üşrün ümumi dəyəri 2.000 ağça olmuşdur. Qəzada istehsal edilən mərcimək məhsulundan 30 kilə (750 kq) üşr əldə edilmiş və bunun maddi dəyəri 1.800 ağça təşkil etmişdir. Qəzada becərilən taxıl məhsulları arasında ən az üşr gətirən məhsul isə illik 20 kilə (500 kq) üşr həcmi ilə noxuddur; noxuddan əldə edilən üşrün ümumi dəyəri 1.200 ağçadır (1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 95). Beləliklə, İrəvan nahiyəsində becərilən yeddi müxtəlif taxıl məhsulundan toplanan üşrün ümumi dəyəri illik 36.760 ağça olmuşdur.

İrəvan vilayətinin Qırxbulaq nahiyəsində yetişdirilən taxıl məhsulları arasında buğda və arpa xüsusi əhəmiyyətə malikdir. Bu iki əsas məhsuldan biri olan buğdadan illik 6701 kilə (167.525 kq) üşr toplanmış və bu üşrün iqtisadi dəyəri 202.530 ağça təşkil etmişdir. İstehsal həcmi buğda ilə eyni olan arpadan toplanan üşr miqdarı isə 6702 kilədir (149.119.5 kq) və bunun illik iqtisadi dəyəri 132.740 ağça olmuşdur. Bu iki məhsuldan sonra gələn çəltik də nahiyədə istehsalı mühüm yer tutan taxıl növlərindən biridir. Çəltikçilikdən illik 3286 kilə (41.152.808 kq) üşr əldə edilmiş və bu miqdarın iqtisadi dəyəri 196.100 ağça təşkil etmişdir. Çəltik bazar dəyəri yüksək olan bir məhsuldur. Buna görə də, çəltikdən toplanan üşrün kilə miqdarı buğda və arpanın yarısı qədər belə olmasa da, iqtisadi baxımdan demək olar ki, buğda ilə eyni səviyyədə gəlir təmin etmişdir (bax:

1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 97-98, 100-163).

Beləliklə, Qırxbulaq nahiyəsində üşr gəlirləri arasında birinci yeri buğda, ikinci yeri çəltik, üçüncü yeri isə arpa tutmuşdur. Nahiyədə yetişdirilən digər məhsullardan biri də kətan toxumudur. Kətandan illik 454 kilə üşr toplanmış və bunun iqtisadi dəyəri 45.400 ağça təşkil etmişdir. Bu göstərici ilə kətan toxumu nahiyənin üşr gəlirləri sırasında dördüncü yerdə qərarlaşır (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 97, 99-150).

Nahiyədə üşr gəlirlərinə beşinci ən böyük töhfəni verən məhsul isə darıdır. Yetişdirilən ərzəndən ümumilikdə 707 kilə (17.675 kq) üşr toplanmış və bu miqdarın ümumi iqtisadi dəyəri 14.140 ağça olmuşdur. Nahiyədə istehsal edilən mərcimək məhsulundan illik 142 kilə (3550 kq), noxuddan isə 121 kilə (3025 kq) üşr alınmışdır. Bu göstəricilərə əsasən mərcimək üşrünün dəyəri 8.520 ağça, noxud üşrünün dəyəri isə 7.260 ağçadır (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 98-163).

Nahiyədə yalnız üç kənddə (Cərviş, Ərinc, Məqhud məzrəsi) becərilən qarışıq dənli bitkilərdən 243 kilə üşr toplanmış və bunun dəyəri 4.980 ağça olaraq müəyyən edilmişdir (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 97, 147). Cəmi iki kənddə (Ərəmus, Araxos) paxla becərilmiş, hər biri iki kilə olmaqla ümumilikdə 4 kilə üşr toplanmış və dəyəri 240 ağça olmuşdur (1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 111, 113). Beləliklə, Qırxbulaq nahiyəsində yetişdirilən doqquz müxtəlif taxıl məhsulundan toplanan üşrün ümumi dəyəri illik 611.910 ağça təşkil etmişdir.

Kərpi nahiyəsində yetişdirilən məhsullar buğda, arpa, darı, kətan, çəltik, noxud və mərcimək və qarşıq dənli bitkilərdir. Nahiyə üzrə əkilən dənli bitkilər arasında ilk yeri arpa tutur. Arpadan alınan üşürün miqdarı 10.214 kilə (255.35 kq) olmuşdur. İkinci yerdə dayanan buğdadan isə ümumilikdə 8.634 kilə (215.850 kq) üşür toplanmışdır. Bununla belə, iqtisadi töhfə baxımından buğda nahiyə üzrə birinci sırada dayanır. Buğdadan yığılan üşrün pul ekvivalenti 259.020 ağça təşkil edir. Kilə etibarilə ilk sırada duran arpanın dəyəri isə 204.280 ağça olmuşdur. Nahiyədə becərilən dənli bitkilər arasında üçüncü sırada kətan toxumu dayanır. Kətan toxumundan ümumilikdə 619 kilə üşür toplanmış və onun dəyəri 61.900 ağça olmuşdur. Nahiyədə yaşayışın və əkinçiliyin mövcud olduğu ümumilikdə 108 kənddən 20-də çəltik becərilmişdi. Çəltik nahiyədə buğda, arpa və kətan toxumundan sonra dördüncü sırada dayanan mühüm kənd təsərrüfatı məhsuludur. Çəltikdən alınan illik üşürün miqdarı 802 kilə (10288.056 kq), onun dəyəri isə 48.120 ağça təşkil etmişdir. Nahiyədə əhəmiyyət baxımından çəltikdən sonra gələn məhsul məhlutdur (qarışıq dənli bitkilər). Məhlutdan toplanan üşürün ümumi miqdarı 1.128 kilə, dəyəri isə 22.560 ağçadır. Nahiyədə yetişdirilən darıdan alınan üşürün miqdarı 580 kilə (14.500 kq) olmuş, onun dəyəri isə 11.600 ağça təşkil etmişdir. Nahiyədə yetişdirilən taxıl məhsulları arasında mərcimək və noxud son sırada dayanırlar. Mərciməkdən alınan üşürün miqdarı 132 kilə (3.300 kq) və dəyəri 7920 ağça, noxuddan alınan üşürün miqdarı illik 83 kilə (2.025 kq), dəyəri 4980 ağçadır. Kərpi nahiyəsində yetişdirilən 8 adda dənli bitkilərdən toplanan illik üşrün dəyəri 620.380 ağçadır (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 165-289).

Dərəçiçək nahiyəsində yetişdirilən dənli bitkilər buğda, arpa, məhlut, darı və kətan toxumudur. Nahiyə dağlıq coğrafiyaya və sərt kontinental iqlimə malikdir. Bu amil nahiyədə yetişdirilən məhsulların çeşidinə mənfi təsir göstərmişdir. Sərt kontinental iqlim, eləcə də yay aylarında temperaturun kifayət qədər yüksək olmaması çəltik və pambıq əkinini mümkünsüz etmişdir. Nahiyədə yetişdirilən dənli bitkilər arasında kilə baxımından ən çox üşür alınan məhsul arpadır. Arpadan toplanan üşürün ümumi miqdarı 2.598 kilə (57.805.5 kq) təşkil edir və dəyəri 51.960 ağçadır. Əhəmiyyətinə görə ikinci yeri buğda tutur və bu məhsuldan ümumilikdə 2.122 kilə (53.050 kq) üşür əldə olunmuşdur ki, dəyəri 63.660 ağça olmuşdur. Kətan toxumu əkinindən əldə olunan üşür gəliri buğda və arpadan sonra üçüncü yerdə durmuşdur. Ümumi həcmi 230 kilə olan üşrün illik dəyəri 23.000 ağça təşkil edir. Nahiyədə yetişdirilən digər taxıl məhsulu isə məhlutdur. Məhlutdan toplanan üşrün ümumi miqdarı 289 kilə olmuş, dəyəri isə 5.780 ağça səviyyəsində olmuşdur. Nahiyədə digər taxıl növlərinə nisbətən daha az

miqdarda yetişdirilən məhsul isə 68 kilə (1.700 kq) üşürlə təmsil olunan darıdır. Darının iqtisadi dəyəri cüzi olub, cəmi 1.260 ağçadır. Dərəçiçək nahiyəsində yetişdirilən taxıl məhsullarından alınan üşrün ümumi dəyəri illik 145.660 ağça təşkil etmişdir (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 291-307).

Dərəçiçək nahiyəsinin sərhəd qonşusu olan Abaran nahiyəsi də dağlıq relyefə və sərt kontinental iqlimə malikdir. Bu, nahiyədə də yetişdirilən məhsulların çeşidinə mənfi təsir göstərmişdir. Məhz bu coğrafi relyef xüsusiyyətləri və iqlim şəraiti nahiyədə buğda, arpa, məhlut, darı və kətan toxumu becərilməısini mümkün etmişdir. Nahiyədə yetişdirilən əsas məhsul arpa və buğdadır. Arpadan alınan üşrün kilə etibarilə buğdadan çox olmasına baxmayaraq, buğda nahiyə iqtisadiyyatına töhfəsi baxımından birinci sırada dayanır. Nahiyə üzrə arpadan toplanan üşrün ümumi miqdarı 1.664 kilə (37.024 kq) olub, onun dəyəri illik 33.880 ağça təşkil edir. Buğdadan alınan üşür isə arpa ilə müqayisədə daha az – 1.282 (32.050 kq) kilədir. Bununla belə, buğdanın dəyəri 38.310 ağçadır. Məhlut və kətan toxumu iqtisadi baxımdan bir-birinə yaxın məhsullardır. Məhlutdan toplanan üşrün miqdarı 326 kilə, dəyəri isə 6.540 ağçadır. Kətan toxumu 59 kilə, 5.900 ağça dəyərinə malikdir (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 309-324). Yalnız Hacıbulaq kəndində becərilən darının üşrü cəmi 5 kilə (125 kq) olmuş və dəyəri 100 ağça təşkil etmişdir (1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 319). Abaran nahiyəsində becərilən taxıl məhsullarından alınan üşrün ümumi dəyəri illik 84.730 ağça olmuşdur.

Sürməli nahiyəsində becərilən taxıl məhsulları arasında buğda, arpa, məhlut, darı və kətan toxumu əsas yer tutmuşdur. Nahiyənin nisbətən daha mülayim iqlimə malik hissələrinin mövcudluğu burada pambıq becərilməsindən aydın olur. Nahiyədə yetişdirilən ən mühüm məhsul buğdadır. Buğdadan toplanan üşrün miqdarı 1.627 kilə (40.675 kq) olub, illik dəyəri 48.810 ağça təşkil etmişdir. Buğdadan sonra becərilən mühüm məhsul arpadır. Arpadan alınan üşrün miqdarı 2.128 kilə (47.348 kq), dəyəri isə 42.560 ağçadır. Toplanan üşür gəlirləri məhlut və darı istehsalının bir-birinə yaxın olduğunu göstərir. Məhlutdan alınan üşrün miqdarı 228 kilə, dəyəri 4.560 ağça, darıdan alınan üşrün miqdarı 212 kilə (5.300 kq), dəyəri isə 4.240 ağça təşkil etmişdir. Ümumi üşrü 37 kilə olan kətan toxumu nahiyə iqtisadiyyatına 3.700 ağça həcmində töhfə vermişdir. Sürməli nahiyəsində becərilən dənli bitkilərdən alınan üşrün ümumi dəyəri illik 103.870 ağça olmuşdur (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 327-335).

İğdır nahiyəsində becərilən dənli bitkilər arasında buğda, arpa, məhlut, kətan toxumu və çəltikdir. Nahiyə üzrə becərilən taxıl növləri arasında ən mühüm məhsul buğda və arpadır. Buğda istehsalı arpa ilə müqayisədə az fərqlə geri qalsa da, iqtisadi baxımdan ilk sırada buğda dayanır. Buğdadan alınan üşrün miqdarı 4.462 kilə (111.550 kq), dəyəri 133.860 ağça, arpadan alınan üşrün miqdarı isə 5.559 kilə (123.689.75 kq), iqtisadi dəyəri 111.180 ağçadır (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 357-406).

Kətan toxumu və çəltiyin nahiyə iqtisadiyyatına töhfəsi bir-birinə yaxın səviyyədədir. Kətan toxumundan alınan üşrün miqdarı 190 kilə olub, dəyəri 19.000 ağça təşkil etmişdi. Yaşayış və əkinçiliyin mövcud olduğu 45 kənddən 10-da çəltik becərilmiş, üşrün miqdarı 300 kilə (3.848.4 kq), dəyəri isə 18.000 ağça olmuşdur. Məhlut əkinindən ümumilikdə 875 kilə üşür əldə edilmişdir ki, dəyəri 17.500 ağça təşkil etmişdir. Nahiyə üzrə yalnız üç kənddə (Qızılzəngər, Pulur, Davudlu) becərilən darıdan 40 kilə (1.000 kq) üşür toplanmış, dəyəri 800 ağça olmuşdur (1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 383-384, 394). İğdır nahiyəsində becərilən dənli bitkilərdən alınan üşrün ümumi dəyəri illik 300.340 ağça təşkil etmişdir.

Aralık nahiyəsində becərilən dənli bitkilər İğdır nahiyəsi ilə eynidir və bunlara buğda, arpa, darı, məhlut, kətan toxumu və çəltik daxildir. İrəvan livasının digər nahiyələrində olduğu kimi, burada da buğda və arpa istehsalı prioritet əhəmiyyətə malikdir. Arpadan toplanan üşrün miqdarı 1.485 kilə (33.041.25 kq), dəyəri 29.700, buğdadan alınan üşür 1.116 kilə (27.900 kq), dəyəri 33.480 ağça olmuşdur. Bu iki əsas dənli bitkidən sonra nahiyə üzrə altı kənddə yetişdirilən mühüm məhsul çəltikdir.

Çəltikdən toplanan üşrün ümumi miqdarı 120 kilə (1.539.36 kq) olub, dəyəri 7.200 ağçadır. Məhlut əkinindən alınan üşrün miqdarı 226 kilə, dəyəri isə 4.520 ağçadır. 40 kilə üşrü olan kətan toxumu nahiyə iqtisadiyyatına 4.000 ağça məbləğində töhfə vermişdir. Üç kənddə yetişdirilən darıdan isə 17 kilə (1.000 kq) üşür toplanmışdır ki, onun dəyəri cəmi 340 ağça olmuşdur. Aralıq nahiyəsində yetişdirilən taxıl məhsullarından alınan üşrün ümumi dəyəri illik 79.240 ağça təşkil etmişdir (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 407-431).

Sədərək nahiyəsində yetişdirilən taxıl məhsulları buğda, arpa, darı, məhlut və kətan toxumudur. Üşür gəlirləri baxımından nahiyədə ən mühüm taxıl məhsulu 13.290 ağça ilə buğdadır; ikinci yeri 13020 ağça ilə arpa tutur. Kətan toxumundan alınan 13 kilə üşrün dəyəri 1.300 ağçadır. Məhlut əkinindən isə 62 kilə üşür toplanmış və onun dəyəri 1.240 ağça təşkil etmişdir. Nahiyədə ən az 54 kilə (1.350 kq) darı istehsal olunub ki, onun illik 1.080 ağça olmuşdur. Sədərək nahiyəsində yetişdirilən taxıl məhsullarından alınan üşrün ümumi dəyəri illik 29.930 ağça olmuşdur (1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 436-449).

Maku nahiyəsində yetişdirilən taxıl məhsulları Sədərək nahiyəsində yetişdirilənlərlə eynidir; yəni buğda, arpa, darı, məhlut və kətan toxumudur. Nahiyədə pambıq pambıq becərilmişdir. Nahiyədə yetişdirilən buğdadan 2.006 kilə üşürü toplanmış və dəyəri 60.180 ağça təşkil etmişdir. Buğda ilə müqayisədə daha geniş şəkildə əkilən arpadan isə 2.308 kilə üşür əldə olunmuşdur. Lakin arpanın qiyməti buğdadan aşağı olduğu üçün ondan alınan üşrün dəyəri 46.160 ağça təşkil etmişdir. Nahiyədə yetişdirilən taxıl məhsulları arasında üçüncü yerdə məhlut dayanır. Məhlut əkinindən əldə olunan üşrün miqdarı 565 kilə, dəyəri isə 11.300 ağçadır. Nahiyə üzrə 61 kilə üşrü toplanan kətan toxumunun dəyəri 6.100 ağça olmuşdur. Yalnız üç kənddə yetişdirildiyi görünən darıdan ümumilikdə 20 kilə (500 kq) üşür əldə edilmiş və onun dəyəri 400 ağça olmuşdur. Maku nahiyəsində yetişdirilən taxıl məhsullarından alınan üşrün ümumi dəyəri 124.140 ağça təşkil etmişdir (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 455-500).

Şərur nahiyəsində yetişdirilən taxıl məhsulları buğda, arpa, darı, kətan toxumu və çəltikdir. İrəvan livasının nahiyələri arasında çəltik əkininin ən geniş şəkildə aparıldığı ərazi məhz Şərur nahiyəsidir. Nahiyədə taxıl məhsullarından toplanan üşür gəlirləri içərisində birinci yeri, böyük fərqlə, çəltik tutur. Çəltik əkinindən ümumilikdə 2.537 kilə (32.544.636 kq) üşür əldə edilmişdir ki, onun dəyəri 152.220 ağça təşkil etmişdi. Çəltikdən sonra ikinci yerdə duran məhsul buğdadır. Buğdadan toplanan üşrün miqdarı 3.975 kilə (99.375 kq), dəyəri 119.250 ağça təşkil etmişdir. Arpadan alınan üşürün miqdarı 5.199 kilə (115.677.75 kq), dəyəri isə 103.980 ağça təşkil edir. İrəvan livasının digər nahiyələri ilə müqayisədə darı əkinçiliyi də əhəmiyyətli həcmdədir. Darıdan ümumilikdə 519 kilə (12.975 kq) üşür əldə olunmuşdur ki, onun dəyəri 10.380 ağçadır (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 502-582).

Vedi nahiyəsində yetişdirilən taxıl məhsullarına buğda, arpa, darı, məhlut, kətan toxumu, noxud və mərcimək daxildir. Nahiyədə arpa əkini buğdaya nisbətən daha geniş yayılmışdır. Arpadan alınan üşürün miqdarı 2540 kilə (56.515 kq), dəyəri 50.700 ağçadır. Ondan sonra ikinci yerdə buğda dayanır. Buğdadan 1860 kilə (46.500 kq) üşür toplanmışdır ki, dəyəri 58.800 ağça təşkil edir. Kətan toxumu üzrə toplanan üşür 147 kilədir ki, onun dəyəri 14.700 ağçadır. Məhlutdan əldə edilən üşür 287 kilədir və dəyəri 5.740 ağça təşkil edir. Mərcimək və noxud əkini həcminə görə bir-birinə yaxın olsa da, mərcimək 44 kilə, dəyəri 2.640 ağça, noxud üşrü isə 36 kilə, dəyəri 2.160 ağçadır. Ümumi üşrü 113 kile (2825 kq) olan darının dəyəri 2.260 ağça olmuşdur. Vedi nahiyəsində becərilən dənli bitkilərdən toplanan üşrün illik dəyəri ümumilikdə 137.100 ağçaya bərabərdir (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 584-616).

Gərni nahiyəsində yetişdirilən taxıl məhsulları buğda, arpa, darı, kətan toxumu, noxud, mərcimək və çəltik olmuşdur. Nahiyədə taxıl məhsullarından əldə olunan üşr gəlirləri arasında ilk yeri çəltik tutur. Ümumi 1451 kile (18.613.428 kq) çəltik üşrünün dəyəri 87.060 ağçaya bərabərdir. Çəltiyi iqtisadi baxımdan ikinci sırada buğda izləyir. Ümumi üşrü 2824

kile (70.600 kq) olan buğdanın nahiyənin üşr gəlirlərinə töhfəsi 84.720 ağşa olmuşdur. İqtisadi baxımdan üçüncü yerdə dayansa da, miqdarca birinci olan arpadan isə 3978 kile (88.510.5 kq) üşr toplanmışdır. Bu üşrün dəyəri 79.560 ağça təşkil etmişdir. Ümumi üşrü 191 kile olan kətan toxumunun dəyəri isə 19.100 ağçadır. Digər nahiyələrlə müqayisədə darı istehsalının nisbətən yüksək olduğu Kərni nahiyəsində 500 kile (12.500 kq) darı üşrü toplanmış və dəyəri 10.000 ağça olmuşdur. Mərcimək istehsalı noxuda nisbətən az fərqlə üstün olmuşdur: mərciməkdən 53 kile (1.325 kq), noxuddan isə 43 kile (1.075 kq) üşr toplanmışdır. Mərciməyin dəyəri 3.180 ağça, noxudun dəyəri isə 2.580 ağçadır. Gərni nahiyəsində becərilən dənli bitkilərdən toplanan üşrün illik dəyəri 286.200 ağçadır (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 617-698).

Şörəyel nahiyəsi 166 kənddən ibarətdir. Bu kəndlərin 166-dan yalnız 68-də daimi yaşayış mövcuddur. Bu nahiyədə yetişdirilən kənd təsərrüfatı məhsulları buğda, arpa, darı, məhlut, kətan toxumu və çəltiyi əhatə edir. Nahiyədə yetişdirilən taxıl məhsulları arasında üşür gəliri baxımından birinci yerdə buğda dayanır. Nahiyə üzrə buğdadan ümumilikdə 2616 kile (65.400 kq) üşr toplanmış və dəyəri 81.480 ağça təşkil etmişdir. Nahiyədə arpa istehsalı isə buğdaya nisbətən daha çoxdur. Nahiye üzrə arpadan toplanan üşrün miqdarı 3.152 kilə (70.132 kq) təşkil edir. Onun dəyəri 66.340 ağçadır. Nahiyənin iqtisadi baxımdan üçüncü sırada dayanan taxıl məhsulu kətan toxumudur. Onun becərilməsindən 268 kilə üşür toplanmış və dəyəri 26.800 ağça olmuşdur. Kətan toxumundan sonra gələn digər taxıl məhsulu çəltikdir. Çəltikdən toplanan üşrün miqdarı 144 kilə (1.847.232 kq), dəyəri isə 14.400 ağçadır. Nahiyədə darı əkinindən 459 kilə (11.475 kq) üşür toplanmış və dəyəri 9.180 ağça təşkil etmişdir. Nahiyədə əkilən dənli bitkilər içərisində sonuncu sırada dayanan məhsul məhlutdur. Məhlut əkinindən əldə olunan üşrün miqdarı 211 kilə, dəyəri isə 4.220 ağçadır. Şörəyel nahiyəsində yetişdirilən altı fərqli taxıl məhsulundan toplanan üşrün ümumi dəyəri illik 202.420 ağça təşkil edirdi (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 699-759).

XVIII əsrin I yarısı İrəvan əyaləti üçün siyasi-iqtisadi baxımdan mürəkkəb bir dövrdür. 1720-1730-cu illər Azərbaycan ərazilərində Osmənnlı-Səfəvi qarşıdurması, vergi və inzibati dəyişikliklər, həmçinin kənd təsərrüfatının iqlim və təhlükəsizlik şəraiti ilə sıx bağlı inkişafını xarakterizə edir. İrəvan vilayətinin 1727-ci il tarixli “müfəssəl dəftəri”nin təhlili belə deməyə əsas verir ki, əyalətdə dənli bitkilər arasında əsasən buğda, arpa, çəltik (düyü), qarışıq dənli bitkilər, kətan toxumu, mərcimək və darı becərilmişdir. Əyalətdə dənli bitkilərin becərilməsi üç əsas coğrafi zonaya uyğun bölgü ilə qeydə alınmışdır: Arazboyu çay vadiləri – çəltiyin üstünlük təşkil etdiyi suvarılan əkinçilik zonası; Düzənlik ərazilər – buğda və arpanın əsas rol oynadığı ərazilər; Dağətəyi və dağlıq sahələr – arpa, qarışıq dənli bitkilər və darının daha geniş yayıldığı sahələr. Bu bölgü həm təbii-iqlim şəraitindən, həm də suvarma imkanlarından irəli gəlirdi.

“Müfəssəl dəftər”in məlumatına görə, əyalətin demək olar ki, bütün nahiyələrdə üşr gəlirlərində birinci yeri buğda tutur. Buğdanın üstün mövqeyi bir neçə amillə bağlı idi: ərzaq təminatında başlıca rol oynaması, bazar dəyərinin digər dənli bitkilərdən daha yüksək olması, suvarılan və qismən də yağmurlu əkin sahələri üçün universal uyğunluğu. Arpa – iqtisadi dəyərə görə ikinci dərəcəli, lakin geniş yayılmış məhsul kimi diqqəti cəlb edir. Arpa əkinləri livada ikinci böyük dənli bitki sahəsini təşkil edirdi. Onun yayılmasının səbəbləri: az su tələb etməsi, dağətəyi və yarımsəhralıq zonalarda yüksək dözümlülük, heyvandarlığın inkişafı ilə sıx bağlı yem bazası funksiyasının olmasıdır. Üşr dəyəri buğdadan aşağı olsa da, arpanın həcmi bir çox nahiyələrdə buğdaya yaxınlaşırdı. Arpa əyalətdə kənd təsərrüfatı istehsalının dayanıqlı hissəsini formalaşdırırdı.

İrəvan vilayətinin iqtisadi strukturunda diqqətçəkən xüsusiyyət – çəltiyin yüksək paya malik olmasıdır. Xüsusilə Qırxbulaq, Gərni, Kərpi, Şərur nahiyələrində çəltiyin üşr gəlirləri bəzi hallarda arpanı geridə qoyur, bəzən isə buğdaya yaxın dəyərə malik olurdu. Bu fakt bir daha göstərir ki, Araz çayı və onun qolları boyunca suvarma sistemi inkişaf etmişdi; suvarıla bilən torpaqlarda çəltiyin məhsuldarlığı daha yüksək idi; həmin nahiyələr çəltiyin ixtisaslaşmış isteh-

sal zonaları kimi çıxış edirdi. Çəltiyin iqtisadi dəyəri arpa ilə buğdanın arasında yerləşsə də, bəzən yüksək bazar tələbi onu daha gəlirli edirdi. Kətan toxumu, mərcimək, darı dənli bitkilər arasında sonrakı sıralarda yer alırdı. Onlar, əsasən dağətəyi, quru əkinçiliyin hakim olduğu, torpaq keyfiyyətinin nisbətən zəif olduğu bölgələrdə becərilirdi. Üşr miqdarı və iqtisadi dəyəri buğda və arpadan xeyli aşağı olsa da, bəzi nahiyələrdə (Gərni, Kərpi, Qırxbulaq, Dərəçiçək) əhəmiyyətli əlavə gəlir mənbəyi kimi çıxış etmişlər.

***2. Texniki bitkilər***

İrəvan vilayətinin Şörəyel, Dərəçiçək və Abaran nahiyələri istisna olmaqla, Qırxbulaq, Kərpi, Sürməli, İğdır, Aralıq, Sədərək, Makı, Şərur, Vedi və Gərni nahiyələrinin bəzi kəndlərində pambıq becərildiyi müşahidə olunur. Bu fakt həmin yaşayış məntəqələrinin iqlim xüsusiyyətlərinin pambıqçılıq üçün əlverişli olduğunu göstərir.

İrəvan vilayətində pambıq əkin sahələrinin ən çox olduğu nahiyələrdən biri Kərpidir. Nahiyədə qeydə alınan 108 yaşayış məntəqəsindən 68-də pambıq becərilmişdi (bax: 1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri, 2021, s. 171-183, 200-289). Pambıq istehsalından ümumilikdə 2.227 mənn* miqdarında vergi yığılmışdır. Bu verginin iqtisadi dəyəri 167.025 ağçaya bərabərdir. Pambıq istehsalının ən yüksək olduğu yaşayış məntəqəsi Üçkilsə kəndidir. Bu kənddə istehsal olunan pambıqdan toplanmış üşrün həcmi 43.500 ağçadır ki, bu da nahiyə üzrə pambıq məhsulundan daxil olan ümumi üşr gəlirinin dörddə birinə uyğun gəlir (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 203). Üçkilsəni pambıq istehsalı üzrə 9.000 axçə üşr gəliri ilə Şəhriyar kəndi izləyir. Əlibəylü kəndi də 5.250 ağça üşr gəliri ilə qabaqcıl yerlərdən birini tutur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 253, 261).

Şərur nahiyəsi pambıq istehsalına görə İrəvan livasında ikinci yeri tutur. Şərur nahiyəsində əkinçiliklə məşğul olan bütün kəndlərdə eyni zamənnda pambıq istehsalı da mövcud olmuşdur (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 501-581). Nahiyədə pambıq istehsalının qışlaq kimi qeyd edilmiş üç yaşayış məntəqəsində də aparılması diqqət çəkir (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 504-505, 540-541, 543). Bu fakt pambıqçılığın nahiyədə mühüm təsərrüfat sahəsi olduğunu göstərir. Şərur nahiyəsində pambıq, çəltikdən sonra iqtisadi dəyərinə görə ikinci sırada duran məhsuldur. Pambıq istehsalından ümumilikdə 1.781 mənn vergi yığılmışdır ki, onun maddi dəyəri 133.575 ağça təşkil edir. Nahiyədə pambıq əkini ən çox Yuxarı Əlişar və Zaviyə kəndlərində geniş yayılmışdır (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 533, 574).

İrəvan vilayətində pambıq əkininin ən geniş yayıldığı nahiyələrdən biri də İğdırdır. Nahiyədə əkinçiliklə məşğul olan 45 kənddən yalnız 5-də pambıq becərilməmişdir. Qalan 40 yaşayış məntəqəsinin hamısında pambıq əkini aparıldığı müşahidə olunur (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 356-406). Nahiyədə pambıq istehsalından ümumilikdə 1.590 mənn həcmində üşr yığılmış və bu üşrün iqtisadi dəyəri 119.250 ağça təşkil etmişdir. Bu göstəricilər pambıqçılığın nahiyə iqtisadiyyatına buğdadan sonra ikinci böyük töhfəni verdiyini göstərir. Pambıq istehsalının ən çox qeydə alındığı kənd Polur olmuşdur. Bu kənddən toplanan pambıq üşrü 200 mənn təşkil etmiş, onun da maddi dəyəri 15.000 ağça olmuşdur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 384). Pambıq istehsalında Polur kəndini hər biri 7.500 ağça üşr gəliri ilə Əlit və Evci kəndləri izləyir (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 386-387).

Əyalətin Qırxbulaq nahiyəsi də pambıq istehsalı baxımından ən öndə gələn bölgələrdən biri olmuşdur. Qırxbulaq nahiyəsində ümumilikdə 70 yaşayış məntəqəsindən 24-də pambıq becərilmişdir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 97-164). Buna baxmayaraq, pambıq istehsalında yüksək məhsuldarlıq müşahidə edilmişdir. Belə ki, becərilən pambıqdan ümumilikdə 1.150 mənn həcmində üşr yığılmış və onun iqtisadi dəyəri 86.250 ağça təşkil etmişdir. Nahiyədə pambıq istehsalının ən geniş yayıldığı yaşayış məntəqəsi Cərviş kəndidir. Kənddə pambıqdan 200 mənn üşr toplanmışdır (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 97). Pambıq istehsalına görə Nərəkvit, Şirabad və Xaçaparaq kəndləri fərqlən-

* Çəki vahidi olan mənn Səfəvilər dövründə bölgələr üzrə dəyişmişdir. 1 Təbriz mənni – 3 kiloqram olmuşdur (Bax: Hinz, 1990, s. 22).

mişdi. Bu üç yaşayış məntəqəsinin hər birindən 100 mənn üşr toplanmışdır. Cərviş də daxil olmaqla bu dörd yaşayış məntəqəsində pambıq istehsalından ümumilikdə 37.500 ağça dəyərində üşr yığılır (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 106, 142). Bu isə nahiyə üzrə pambıq əkini nəticəsində toplanan ümumi üşrün təxminən yarısına bərabərdir.

İrəvan livasının Gərni nahiyəsində də pambıq əkini mühüm yer tuturdu. Nahiyədə əkinçiliklə məşğul olan yaşayış məntəqələrin yarıdan çoxunda pambıq becərilirdi (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 617-698). Bu istehsaldan ümumilikdə 961 mənn həcmində üşr əldə olunmuş və iqtisadi dəyəri 72.075 ağça təşkil etmişdir. Pambıq istehsalının ən çox qeydə alındığı yaşayış məntəqələri Dəlilər və Böyük Ayaslı kəndləridir. Bu kəndlərin hər birindən toplanan pambıq üşrünün dəyəri 4.500 ağça olmuşdur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 660).

İrəvan vilayətində pambıq becərilən nayihələrdən biri də Vadidir. Nahiyədə əkinçiliklə məşğul kəndlərin yarısında pambıq becərilmişdir. Vadi nahiyəsində pambıq istehsalı buğda və arpadan sonra əhəmiyyətinə görə ikinci sırada dayanır. Pambıq istehsalından ümumilikdə 420 mənn üşr toplanmışdır ki, bu üşrün iqtisadi dəyəri 31.500 ağçadır (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 582-616). Pambıqçılığın ən geniş yayıldığı yaşayış məntəqəsi nahiyəyədə Vadi kəndidir. Vedi kəndində istehsal olunan pambıqdan 6.000 ağça dəyərində üşr gəliri əldə olunmuşdur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 584). Bu göstərici nahiyə üzrə yetişdirilən pambığın təxminən 20%-ə bərabərdir.

Maku nahiyəsində 57 yaşayış məntəqəsindən 19-da pambıq əkini həyata keçirilmişdir. Nahiyədə pambıq istehsalından ümumilikdə 364 mənn vergi yığılmış və onun iqtisadi dəyəri 27.300 ağəa təşkil etmişdir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 457-499). Pambıq ən çox Zir kəndində becərilmiş və bu kənddən 3.750 ağça dəyərində üşr gəliri əldə olunmuşdur. Onu 3.000 ağça gəliri ilə Qutludüz kəndi izləmişdir (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 498).

Vilayətin pambıq becərilən nahiyələrindən biri də Aralıqdır. Aralıq nahiyəsində əkinçiliklə məğul olan 20 yaşayış məntəqəsindən yalnız 5-də pambıq əkini həyata keçirilməmişdir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 407-430). Nahiyədə pambıq istehsalı buğda və arpadan sonra iqtisadi baxımdan üçüncü sırada dayanır. Pambıq əkini nəticəsində ümumilikdə 308 mənn üşr yığılmış və onun iqtisadi dəyəri 23.100 ağça təşkil etmişdir. Pambıq istehsalının ən intensiv olduğu kənd isə 4.500 ağça dəyərində üşr gəliri olan Qaraqoyunlu kəndidir (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 428).

İrəvan livasında pambıq becərilən digər bir nahiyə Sürməlidir. Nahiyədə əkinçiliklə məşğul olan 28 yaşayış məntəqəsindən yalnız 5-də pambıq əkini həyata keçirilmişdir (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 327-331). Bu kəndlərdə aparılan pambıq əkini nəticəsində ümumilikdə 180 mənn üşr yığılmış və onun iqtisadi dəyəri 13.500 ağça olmuşdur. Onun yarıdan çoxu 7.500 ağça dəyərində hissəsi Qulb kəndində becərilmişdir (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 331). Pambıq istehsalında digər mühüm yaşayış məntəqəsi isə Sürməlidir. Burada üşr dəyəri 3.750 ağça olan pambıq yığılmışdır (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 327).

Pambığın az da olsa becərildiyi nayihələrdən biri Sədərəkdir. Nahiyədə əkinçiliklə məşğul olan 20 kənddən yalnız üçündə (Çobankəndi, Kərkicək, İsti) pambıq əkilmişdir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s.436-438). Bu üç kənddə becərilən pambıqdan 58 mənn üşür əldə edilmiştir. Bunun 40 mənnı Çobankəndində əldə olunmuşdur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 437). Nahiyədən alınan pamuk üşrünün iqtisadi dəyəri 4.350 ağça olmuşdur.

İrəvan vilayətinin demək olar ki, bütün nahiyələrində kətan becərilirdi. Kətan, pambıq kimi toxuculuqda istifadə olunan digər lifli məhsuldur. Qırxbulaq nahiyəsi əyalətdə kətan istehsalında birinci yer tuturdu. Nahiyədə kənd təsərrüfatı ilə məşğul olan yaşayış yerlərinin 90%-ində kətan becərilirdi. Qırxbulaqda kətan istehsalında ilk sırada Nərəkvit kəndi gəlirdi. Kənddə kətan istehsalından 9.000 ağça üşür gəliri əldə olunmuşdur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 106). Ərinc və Qızqalası kəndlərinin hər birində isə kətan istehsa-

lından 2.000 ağça üşür gəliri alınmışdır (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 107, 120).

Kərpi nahiyəsi də İrəvan livası ərazisində kətan becərilməsi baxımından ön sıralarda yer alan bölgələrdən biri olmuşdur. Nahiyədə kətan istehsalı kənd təsərrüfatı ilə məşğul olunan kəndlərin demək olar ki, hamısında həyata keçirilirdi. Kətan becərilməsindən ümumilikdə 55.300 ağça məbləğində üşür vergisi əldə edilmişdir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 165-280). Nahiyədə kətan əkininin ən çox həyata keçirildiyi yaşayış məntəqəsi isə Üçkilisə kəndi olmuşdur. Bu kənddə kətan istehsalından ümumilikdə 10 min ağça məbləğində üşür gəliri əldə edildiyi qeyd olunur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 203).

Şurəgəl nahiyəsində də kətan becərilmişdi. Nahiyədə kətan istehsalı digər yaşayış məntəqələri ilə müqayisədə dörd kənddə daha yüksək səviyyədə olmuşdur. Bununla belə, ümumilikdə kətan istehsalı kəndlər arasında bir-birinə yaxın miqdarlarda həyata keçirilmişdir. Nahiyə üzrə kətan becərilməsindən əldə edilən üşür vergisinin ümumi məbləği 37 min 500 ağça təşkil etmişdir. Bu göstərici nahiyədə kətan təsərrüfatının kənd təsərrüfatı fəaliyyətinin mühüm sahələrindən biri olduğunu göstərir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 699-759).

Dərəçiçək nahiyəsi kətan istehsalının həyata keçirildiyi bölgələrdən biri idi. Nahiyədə kənd təsərrüfatı ilə məşğul olunan yaşayış məntəqələrinin demək olar ki, hamısında – yalnız bir kənd istisna olmaqla – kətan becərilirdi. Nahiyə üzrə kətan istehsalından əldə edilən üşür vergisinin ümumi məbləği 30 min 100 ağça təşkil edirdi. Kətan becərilməsinin ən çox inkişaf etdiyi yaşayış məntəqələri isə Çiçək, Qara Murad, Kərnəgi, Canıbəy, Axtu kəndləri idi (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 291-292, 294-305). Bu kəndlər nahiyədə kətan istehsalında ön sıralarda yer alırdı.

İğdır nahiyəsində kətan becərilməsi geniş yayılmış təsərrüfat sahələrindən biri olmuşdur. Nahiyədə mövcud olan 45 kənddən təxminən 70 faizində kətan əkininə rast gəlinir. Kətan becərilməsindən əldə edilən üşür vergisinin ümumi məbləği 23 min 400 ağça təşkil etmişdir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 357-405). Nahiyədə kətan istehsalının ən çox həyata keçirildiyi yaşayış məntəqəsi isə 5 min ağça gəliri ilə seçilən Zəngənə kəndi olmuşdur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 388). Bu göstərici həmin kəndin nahiyədə kətan istehsalının əsas mərkəzlərindən biri olduğunu göstərir.

Gərni nahiyəsində kətan becərilməsi nahiyədə mövcud olan 75 kənddən 35-də həyata keçirilirdi (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 694-698). Bu göstərici nahiyədə kətan təsərrüfatının müəyyən dərəcədə yayılmış olduğunu göstərir. Nahiyədə kətan istehsalının ən çox həyata keçirildiyi yaşayış məntəqəsi 7 min ağça məbləğində üşür gəliri ilə seçilən Yuxarı Qurbağalı  kəndi olmuşdur (1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 619-694). Ümumilikdə nahiyə üzrə kətan becərilməsindən alınan üşür vergisinin iqtisadi dəyəri 27 min 500 ağça təşkil etmişdir.

Vadi nahiyəsində əkin aparılan yaşayış məntəqələrinin təxminən yarısında kətan istehsalı həyata keçirilirdi. Nahiyədə kətan becərilməsindən əldə edilən üşrün maddi dəyəri 16.500 ağça təşkil edirdi (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 586-615). Bu gəlirin 2.000 ağçalıq hissəsi Dəvəli kəndinin payına düşürdü (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 600).

Maku nahiyəsində də kətan əkinçiliyi həyata keçirilmişdir. Nahiyədə 8 yaşayış məntəqəsində kətan əkinçiliyi həyata keçirilmişdir. Bu əkinçilikdən əldə olunan kətan toxumu üşürünün maddi dəyəri 6.100 ağça təşkil etmişdir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 475, 485-486, 488, 490, 492, 498-499).

Abaran nahiyəsində mövcud olan yaşayış məntəqələrində də kətan əkinçiliyi həyata keçirilirdi. Nahiyə üzrə kətan toxumundan əldə edilən üşrün iqtisadi dəyəri ümumilikdə 5.900 ağça təşkil edirdi (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 309-324). Bu gəlirin 1.100 ağçası isə yalnız Savmosavəng kəndində yetişdirilən kətan məhsulundan əldə olunurdu

(bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 321).

Sürməli nahiyəsində kətan əkinçiliyi Qulp və Məcidligöl kəndlərində həyata keçirilirdi. Bu kəndlərdə kətan toxumundan əldə olunan üşürün ümumi dəyəri 3.700 ağça təşkil edirdi (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 331, 341).

Kətan istehsalı Şərur nahiyəsində də həyata keçirilirdi. Nahiyədə kətan becərilməsi geniş şəkildə yayılmamışdı. Kətan əkininin ən çox həyata keçirildiyi yaşayış məntəqəsi Yuxarı Şəhriyar kəndi olmuşdur. Nahiyə üzrə kətan toxumundan alınan üşür vergisinin ümumi pul dəyəri 2.500 ağça təşkil etmişdir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 505, 508, 513).

Sədərək nahiyəsinin Çobankəndi və Körlik kəndlərdə kətan əkinçiliyi həyata keçirilirdi (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 437, 441). Kətan toxumundan əldə edilən üşürün ən yüksək məbləği – 1.000 ağça – Çobankəndi kəndində qeydə alınmışdır (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 337). Ümumilikdə nahiyə üzrə kətan toxumundan 1.300 ağça məbləğində üşür gəliri əldə edilmişdir.

İrəvan vilayətində kətan əkinçiliyi İrəvan qəzasında da həyata keçirilmişdir. Qəzada kətan toxumundan ildə ümumilikdə 3.000 ağça məbləğində üşür gəliri əldə olunmuşdur (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 95).

İrəvan vilayətində becərilən texniki bitkilər arasında tütün də xüsusi yer tuturdu. 1727-ci il tarixli müfəssəl təhrir dəftərində "təmbəki üşrü" adı ilə qeyd olunan vergi, bölgədə istehsalı geniş yayılmamış tütündən alınan vergini ifadə edirdi. Mənbənin məlumatlarına görə, vilayətin yalnız Şərur nahiyəsinin 70 kəndindən 26-da və Gərni nahiyəsinin 92-i kəndindən 24-də tütün istehsalı həyata keçirilmişdir. Nağd şəkildə qeydə alınmış bu məhsuldan alınan verginin məbləği Şərur nahiyəsində 5.334 ağça, Gərni nahiyəsində isə 3.200 ağça olaraq göstərilmişdir. Bu göstəricilər bölgədə tütün istehsalının məhdud miqyasda olsa da həyata keçirildiyini və onun əsasən müəyyən nahiyələrdə cəmləşdiyini göstərir (bax: 1727-ci il tarixli Rəvan livası təhrir dəftəri, 2021, s. 502-561, 627-696).

**Nəticə**

"1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri"nə görə İrəvan vilayətində kənd təsərrüfatının vəziyyəti mövzusunda aparılan araşdırma göstərir ki, XVIII əsrin birinci sülsündə bölgənin iqtisadi həyatında kənd təsərrüfatı həlledici rol oynamışdır. İrəvan vilayəti üzrə tərtib edilmiş müfəssəl təhrir dəftərində əks olunan məlumatlar vilayətin kənd təsərrüfatı istehsalının strukturunu, əkin sahələrinin coğrafi bölgüsünü və istehsal olunan məhsulların müxtəlifliyini müəyyənləşdirməyə imkan verir.

Təhlil göstərir ki, vilayətin əksər nahiyələrində əsas kənd təsərrüfatı sahəsini taxılçılıq təşkil edirdi. Buğda və arpa kimi dənli bitkilər kənd təsərrüfatı istehsalının əsasını təşkil etməklə yanaşı, vergi sistemində də mühüm yer tuturdu. Bununla yanaşı, bəzi nahiyələrdə darı, çəltik, noxud, mərcimək və paxla kimi digər kənd təsərrüfatı bitkilərinin becərilməsi də geniş yayılmışdı. Əkinçiliklə yanaşı, üzümçülük, bağçılıq və bostançılıq kimi sahələr də inkişaf etmiş, xüsusilə iqlim və torpaq şəraiti əlverişli olan bölgələrdə bu təsərrüfat növləri yerli iqtisadiyyatın mühüm tərkib hissəsinə çevrilmişdir.

Mənbənin məlumatları həmçinin göstərir ki, vilayətin təbii-coğrafi şəraiti kənd təsərrüfatının strukturuna bilavasitə təsir göstərmişdir. Dağlıq və yüksək relyefə malik ərazilərdə əsasən taxılçılıq və maldarlıq üstünlük təşkil etdiyi halda, çay vadiləri və suvarma imkanlarının mövcud olduğu ərazilərdə daha müxtəlif kənd təsərrüfatı məhsulları becərilirdi. Bu isə kənd təsərrüfatının vilayətin müxtəlif nahiyələrində fərqli xüsusiyyətlərə malik olduğunu göstərir.

Nəticə etibarilə, 1727-ci il tarixli təhrir dəftərinin məlumatları əsasında demək olar ki, İrəvan vilayətində kənd təsərrüfatı inkişaf etmiş və çoxşaxəli xarakter daşımışdır. Əkinçilik, bağçılıq və qismən maldarlığın qarşılıqlı şəkildə inkişafı bölgənin iqtisadi həyatının əsasını təşkil etmiş, kənd təsərrüfatı məhsulları həm yerli əhalinin təminatında, həm də dövlətin vergi gəlirlərinin formalaşmasında mühüm rol oynamışdır. Bu baxımdan, müfəssəl təhrir dəftəri XVIII

əsrin əvvəllərində vilayətin aqrar-iqtisadi strukturunu öyrənmək üçün mühüm və etibarlı mənbə kimi çıxış edir.

## ƏDƏBİYYAT


1. Budaqova, S.İ. (2025). *İrəvan xanlığının tarixi coğrafiyası və əhalisinin yerləşməsi*. Bakı: Ocaq.
2. *Evliya Çələbi Səyahətnaməsində Azərbaycan*. (2012). Nəşrə hazırlayan Mehmet Rıhtım. Bakı: Qafqaz Universiteti Nəşriyyatı.
3. *İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi*. (2010). Bakı: Çaşıoğlu.
4. İsmayılov, M.C. (2022). "İrəvan şəhərinin coğrafi mövqeyi və təbii şəraiti", *İrəvan necə varsa: Keçmişdən bu günə.* Bakı: "Aspoliqraf LTD" MMC, s. s. 12-18.
5. *1727-ci il tarixli Rəvan livası müfəssəl təhrir dəftəri*, (2021). Transleterasiya, tərcümə, giriş, terminaloji lüğət və göstərircilər t.ü.f.d., dos. Fərəh Hüseynindir. Bakı: "İdeal-Print MMC".
6. Məmmədova, İ.M. (2022). "İrəvan xanlığı əhalisinin məşğuliyyəti", *İrəvan necə varsa: Keçmişdən bu günə*. Bakı: "Aspoliqraf LTD" MMC, s. 89-90.
7. Doğanay, H. (2007). *Ziraat Coğrafyası*, Erzurum: Aktif Yayınevi.
8. Hinz, W. (1990). *İslâm'da Ölçü Sistemleri*, Çev. Acar Sevim, İstanbul: Marmara Üniversitesi Fen-Edebiyat Fakültesi.
9. İvecan, R. (2007). *Osmanlı Hâkimiyetinde Revan (1724-1746),* T.C. Marmara Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü, Doktora Tezi, İstanbul.
10. Yeşilot, O. (2014). *Şahın Ülkesinde: Rus çarı I. Petronun İran Elçisi Artemiy Volınskiynin Kafkasya Raporu.* İstanbul: Yeditepe Yayınevi.
11. Зевакин Е.С. (1929). «Азербайджан в начале XVIII века». *Изв. Об-ва обследования и изучения Азербайджана*. Баку: Вып. №8, с. 1-35.


## Summary

**Shabnam Rustamova**

### The State of Agriculture in the Erivan Province According to the Detailed Tahrir Register of the Revan Sanjak of 1727

This article examines the state of agriculture in the Erivan Province based on the "Detailed Tahrir Register of the Revan Sanjak dated 1727". The main objective of the study is to determine the structure of agricultural production in the region, the principal types of cultivated crops, and the characteristics of their distribution across the nahiyahs. Drawing on the data recorded in the tahrir register, the study analyzes grain production and the cultivation of industrial crops in the province, as well as the tax revenues obtained from these sectors and their economic significance. The article also examines the differences in agricultural production among the nahiyahs and demonstrates their relationship with natural-geographical conditions, patterns of settlement, and economic traditions. The analysis shows that in the first half of the eighteenth century agriculture played a significant role in the economic life of the region and constituted one of the main pillars of the taxation system.

***Keywords:*** *Erivan Province, detailed tahrir register, agriculture, farming, cereals.*

## Резюме

**Шабнам Рустамова**

### Состояние сельского хозяйства в Иреванская провинция согласно подробному тахрирному дефтеру Реванский лива 1727 года

В данной статье на основе «Подробной тахрирной переписной книги Реванского лива 1727 года» исследуется состояние сельского хозяйства в Иреванская провинция. Основная цель исследования – определить структуру сельскохозяйственного производства в регионе, основные виды возделываемых культур и особенности их распространения по нахийям. На основе сведений, содержащихся в тахрирном дефтере, анализируется зерновое хозяйство и возделывание технических культур в провинции, а также определяются налоговые доходы, получаемые из этих отраслей, и их экономическое значение. В статье также рассматриваются различия в сельскохозяйственном производстве между нахийями и показывается их связь с природно-географическими условиями, расселением населения и хозяйственными традициями. Проведённый анализ позволяет сделать вывод о том, что в первой половине XVIII века сельское хозяйство играло важную роль в экономической жизни региона и являлось одной из основных опор налоговой системы.

***Ключевые слова:*** *Иреванская провинция, подробный тахрирный дефтер, сельское хозяйство, земледелие, зерновые культуры.*